Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri

**cənab Anar Bağırova**

Bakı şəhəri, Sabunçu r., Oktyabr küçəsi 37, mənzil 14 ünvanında qeydiyyatda olmaqla yaşayan Əhmədova Aypara Qanboy qızı tərəfindən

# TƏŞƏKKÜR

Hörmətli Anar müəllim!

Özüm hərbi qulluqçuyam. Uzun illər boyunca hüquqlarım pozulurdu. Qonşuluqda yaşayan bir qadın öz qızları ilə birlikdə məni daim təhqir edirdilər, iş yerimə gəlib məni nüfuzdan salırdılar, cənab nazirə belə barəmdə böhtan dolu ərizələr yazırdılar. Onları susdurmağa qadir olan bir nəfər tapa bilmirdim. Təsadüfən vəkil Ayazbəy Əhmədovu tanıdım və ondan kömək istədim. Lakin onun da Sabunçu rayon Məhkəməsinə verdiyi iddia ərizəsi rədd olundu. Bundan sonra mənə elə başa düşdüm ki, məhkəmənin, hüququn da o adamlara gücü çatmır. Vəkil Ayazbəy müəllim mənə demişdi ki, haqq-ədalət sonda öz yerini tapacaq. Belə də oldu. Ayazbəy Əhmədovun verdiyi apelyasiya şikayəti qismən təmin olundu, mənim hüquqlarım qismən bərpa olundu. Sonradan Ayazbəy Əhmədov təkid etdi və həmin qətnamədən də Ali Məhkəməyə şikayət verdik. Ali Məhkəmə bizim şikayətimizi təmin etdi, hüquqlarım tam bərpa olundu. Buna görə mən təkcə Ayazbəy Əhmədova yox, həm də Sizə minnətdarlığımı bildirirəm, Anar müəllim! Çox sağ olun ki, Vəkillər Kollegiyasında belə vicdanlı, savadlı və bacarıqlı vəkil qəbul etmisiniz. Tək canı ilə o, qarşı tərəfin 3 vəkili ilə mübarizə apardı və qalib gəldi. Bu ədalətin təntənəsi oldu. Allah hamıya haqqının bərpasını görməyi qismət etsin! Bir daha Sizə təşəkkürümü bildirirəm!

Hörmətlə,

Aypara Əhmədova

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 2301
«05» 08 2022 il